UOT 94"/9/..."

# GUAM ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN-UKRAYNA ƏLAQƏLƏRİ

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*MDB məkanında ineqrasiya proseslərinin zəifliyi, möcud problemlərin öz həllini tapmaması yeni subregional təşkilatların meydana gəlməsi ilə nəticələnmişdir. Belə təşkilatlardan biri də Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın daxil olduqları GUAM-dır. Azərbaycan-Ukrayna əlaqələrinin genişlənməsi ikitərəfli münasibətləri inkişaf etdirməklə yanaşı, GUAM-ın inkişafına da müsbət təsir göstərir. Azərbaycan-Ukrayna əlaqələri iqtisadi, ticarət, siyasi və hərbi sahələri əhatə edir.*

**Açar sözlər:** Azərbaycan, Ukrayna, GUAM, inteqrasiya

MDB daxilində iqtisadi və siyasi inteqrasiya proseslərinin zəif olması, qəbul olunmuş qərarların həyata keçirilmə mexanizminin yaradılmaması keçmiş sovet məkanında yeni regional və subregional təşkilatların yaradılması ilə nəticələnmişdir. Belə təşkilatlardan biri olan GUAM Xəzər-Qara dəniz hövzəsi ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsində müəyyən rol oynayır.

GUAM 1997-ci il oktyabrın 10-da Gürcüstan prezidenti E. Şevardnadze, Ukrayna prezidenti L.Kuçma, Azərbaycan prezidenti H.Əliyev və Moldova prezidenti P.Luçinski arasında Strasburqda, Avropa Şurasının sammiti çərçivəsində baş tutmuş görüşünün nəticəsi olaraq yaradılmışdı. Bu görüş zamanı prezidentlər Birgə Kommunike imzalamışdılar (1). Bu sənəddə GUAM-ın əsas məqsədinin Avroasiya Transqafqaz nəqliyyat dəhlizinin yaradılması olduğu vurğulanmış, dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək, mövcud iqtisadi potensialı reallaşdırmaq üçün qarşılıqlı əlaqələri genişləndirmək nəzərdə tutulmuşdu. Eyni zamanda stabil və təhlükəsiz Avropa yaratmaq məqsəd kimi qarşıya qoyulmuş, buna nail olmaq üçün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı, əməkdaşlıq, demokratiya, qanun aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsas götürülmüşdür. Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentləri Avropada həllini tapmamış münaqişələrin tezliklə və sülh yolu ilə həll olunmasının, aqressiv millətçiliyə, separatizmə və beynəlxalq terrorizmə qarşı birgə

mübarizə aparılmasının zəruriliyi məsələsində də vahid mövqe nümayiş etdirmişdilər. 1999-cu ildən 2005-ci ilədək Özbəkistan da Birliyin üzvü olmuşdu.

2006-cı il mayın 22-23-də keçirilmiş Kiyev sammitdə, bu vaxta qədər subregional Birlik kimi fəaliyyət göstərən GUAM-ın təşkilatlanması prosesi başa çatdı və onun əsasında Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM yaradıldı və yeni təşkilatın Nizamnaməsi qəbul edildi (6). Nizamnaməyə uyğun olaraq GUAM təşkilatı çərçivəsində əməkdaşlığın məqsədləri aşağıdakılardan ibarətdir:

- demokratik dəyərlərin təsdiq edilməsi, hüququn aliliyinin və insan haqlarına hörmətin təmin olunması;
- davamlı inkişafın təmin edilməsi;
- beynəlxalq və regional təhlükəsizliyin və stabilliyin möhkəmləndirilməsi;
- ümumi təhlükəsizlik məkanının yaradılması üçün Avropa inteqrasiyasının dərinləşdirilməsi, həmçinin iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi;
- tərəflərin sosial-iqtisadi, nəqliyyat, enerji, elmi-texniki və humanitar potensialının inkişaf etdirilməsi;
- qarşılıqlı maraq kəsb edən sahələrdə qarşılıqlı siyasi əlaqələrin və praktiki əməkdaşlığın fəallaşdırılması.

Müəyyənləşdirilmiş məqsədlərə dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, onların beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, daxili işlərə qarışmamaq prinsiplərini və beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş digər prinsip və normalarını əldə rəhbər tutaraq qarşılıqlı səmərəli əməkdaşlığı inkişaf etdirmək yolu ilə nail olmaq olar.

GUAM-ın strukturuna Şura və Katiblik daxildir. Təşkilatın əsas orqanı olan Şura öz işini dövlət başçıları, xarici işlər nazirləri, milli əlaqələndiricilər və daimi nümayəndələr səviyyəsində həyata keçirir. Beynəlxalq hüququn subyekti olan GUAM-da qərarlar konsensus yolu ilə qəbul edilir.

GUAM daha çox iqtisadi və nəqliyyat-kommunikasiya layihələrini həyata keçirmək məqsədilə yaradılmışdır, buna baxmayaraq o, müəyyən siyasi və hərbi xarakterli problemlərin həlli ilə də məşğul olur.

Azərbaycan və Gürcüstan, Ukrayna və Moldovanın Qərbə istiqamətlənmiş yeni strukturda birləşmələrini onların Rusiya ilə olan ikitərəfli münasibətlərinə yenidən baxmaları kimi qiymətləndirmək düzgün olmazdı. Bu ölkələrin bu addımını qarşılaşdıqları problemləri MDB çərçivəsində həll edə bilməmələri, bu təşkilatın Rusiyanın təsir dairəsində qalması, sonuncunun isə tərəfdaşları ilə münasibətlərdə həmişə səmimi olmaması ilə izah olunur. V.Deqoyevin qeyd etdiyi kimi, "Gürcüstan, Azərbaycan və Ukraynanın rəhbərləri daha çox dolaşıq postsovet vəziyyətin girovuna çevrilmişdilər. Rusiyanın özünün nə etməli olduğunu bilmədiyi şəraitdə, bu ölkələrin çıxış yolu axtarmağa tam hüquqları vardı. Müəyyən mənada Kreml GUAM-ı öz əlləri ilə yaratmışdı... GUAM-ın təsisçi-dövlətləri Rusiyaya qarşı deyil, öz xilasları naminə birləş-

mişdilər" (2, 448-449). Başqa sözlə, GUAM-ın meydana gəlməsinin səbəblərini Moskvanın keçən əsrin 90-cı illərində xarici siyasətdə üstünlük verdiyi prioritetlərdə axtarmaq lazımdır. GUAM ölkələri sadəcə daxilən zəif və imperiya ambisiyaları olan Rusiya ilə stabil, dinamik inkişaf edən, onlara yardım etməyə razı olan Qərb ölkələri arasında qalmışdılar və öz seçimlərində sonunculara üstünlük vermişdilər.

İqtisadi inteqrasiyanı dərinləşdirmək tarix səhnəsinə gəldiyi ilk gündən GUAM-ın qarşısında duran əsas vəzifələrdən olmuşdur. Əlverişli coğrafi vəziyyət, nəqliyyat-kommunikasiya xətlərinin və zəruri infrastruktura malik dəniz limanlarının olması GUAM ölkələrində iqtisadiyyatın və nəqliyyatın inkişafı, ölkələrarası inteqrasiyanın genişlənməsi üçün münbit şərait yaradır.

GUAM ölkələri arasında iqtisadi əməkdaşlıq daha çox enerji və nəqliyyat-kommunikasiya sahələrini əhatə edir. İqtisadi əlaqələri inkişaf etdirməkdə əsas strateji məqsəd isə Rusiyadan olan enerji asılılığını azaltmaqdan ibarətdir. Rusiyanın xarici siyasətdə enerji faktorundan təzyiq vasitəsi kimi tez-tez istifadə etməsi də enerji sahəsindəki əməkdaşlığı GUAM ölkələri üçün, xüsusilə Ukrayna üçün daha aktual edir. Rusiyadan yan keçən neft-qaz kəmərləri şəbəkəsinin yaradılması üzv-dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasının vacib şərtlərindən biri kimi nəzərdən keçirilir. Təsadüfi deyildir ki, təşkilatın 2006-cı ildə keçirilmiş Kiyev sammitində tərəflər Mərkəzi Asiya və Xəzər regionundakı enerji daşıyıcılarının Avropa bazarlarına çıxarılması marşrutlarının diversifikasiya olunmasını təklif etmişdilər (7). Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzrum qaz kəmərlərinin istifadəyə verilməsi təkcə bu kəmərlərlə bilavasitə bağlı olan Azərbaycan və Gürcüstanın deyil, bütövlükdə GUAM məkanına daxil olan ölkələrin hamısının enerji təhlükəsizliyinin təmin olunması üçün əlverişli şərait yaratmışdır. Belə ki, Azərbaycanın, həmçinin Qazaxstanın və Türkmənistanın karbohidrogen ehtiyatlarının Qərb istiqamətində nəqli marşrutlarını genişləndirmək məqsədilə müzakirə olunan məsələlərdən biri Bakı-Supsa-Odessa-Brodı marşrutundan istifadə olunması ilə əlaqədardır. Bu marşrutun əhəmiyyətini bir sıra amillərlə izah etmək olar. Qeyd etmək lazımdır ki, 2013-cü ildə Qazaxstanın Kaşaqan yatağında tam həcmdə neft hasilatına başlanılacaq və nəticədə bu ölkədən müxtəlif istiqamətlərdə, o cümlədən Azərbaycan vasitəsilə Qara dəniz istiqamətində neft ixracı kifayət qədər artacaq. Qara dəniz sahillərinə çatdirilmış neftin müəyyən hissəsi məhz Odessa-Brodı kəmərilə Ukrayna ərazisinə daşına bilər. 2001-ci il 11 sentyabr hadisələrindən sonra neft daşıyan tankerlər terrorçuların potensial hücum obyektlərindən birinə çevrilmişdi və nəticədə Bosfor boğazından istifadə etməklə tankerlər vasitəsilə neft ixracının sıgorta və daşınma xərcləri xeyli artmışdı (8). Bu da nisbətən ucuz və təhlükəsiz olan Odessa-Brodı marşrutuna marağı artırmışdı.

Odessa-Brodı kəməri 2004-cü ildən başlayaraq Rusiya tərəfindən revers rejimində istifadə olunmuşdur, yəni kəmərlə əks istiqamətdə, Brodıdan Odessa limanına Rusiya nefti göndərilirdi (9). Kəmərin revers rejimində istifadəsi

2010-cu ilin əvvəllərinədək, onun avers rejimində istismar olunmasına, yəni Odessadan Brodı istiqamətində Azərbaycan neftinin göndərilməsinə qədər davam etmişdi. Bu ilin ilk altı ayı ərzində Ukraynaya GUAM nəqliyyat dəhlizindən keçməklə 500 milyon dollar dəyərində təxminən 1,5 milyon ton Azərbaycan nefti daxil olmuşdu, bu da Ukraynanın tələbatının 25 %-nə bərabərdir. GUAM-ın baş katibi Valeri Çeçelaşvilinin qeyd etdiyi kimi, nəticədə "Azərbaycan yeni bazara çıxış əldə etdi, Gürcüstan özünün tranzit imkanlarını reallaşdırdı, Ukrayna isə xammal mənbələrinin diversifikasiyasını əldə etdi" (10).

GUAM çərçivəsində enerji layihələrinin həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayır. Bu gün Ukrayna ərazilərində Azərbaycan Dövlət Neft Şirkətinə məxsus yanacaqdoldurma məntəqələri mövcuddur. Enerji əməkdaşlığı ilə yanaşı Azərbaycan ilə Ukrayna arasında qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsinə də xüsusi diqqət yetirirlər. 2002-ci il iyulun 20-də Yaltada "GUÖAM-a üzv-dövlətlər arasında azad ticarət zonalarının yaradılması haqqında saziş" imzalanmışdı (5). Sazişdə qarşılıqlı ticarət zamanı gömrük rüsumlarının, vergilərin və onlara ekvivalent olan digər rüsumların ləğv edilməsi, əmtəələrin və xidmətlərin sərbəst hərəkəti yolundakı maneələrin aradan qaldırılması, ticarət və digər əməliyyatlar üzrə qarşılıqlı hesablaşmaların və ödəmələrin səmərəli sisteminin yaradılması və inkişafı, sənaye, kənd təsərrüfatı, nəqliyyat, maliyyə, investisiya və sosial sahələri, həmçinin ədalətli rəqabəti inkişaf etdirmək məqsədilə ticarət-iqtisadi sferada əməkdaşlığı və azad ticarəti həyata keçirmək üçün zəruri olan səviyyədə üzv-dövlətlərin qanunvericilik aktlarının harmonizasiyasının təmin olunması nəzərdə tutulur. Azad tranzit prinsipinə əməl olunması azad ticarət zonalarının yaradılması üçün vacib şərtlərdən biri kimi müəyyənləşdirilmişdir.

"GÖUAM-a üzv-dövlətlər arasında azad ticarət zonalarının yaradılması haqqında saziş"lə müəyyənləşdirilmiş vəzifələrin müəyyən hissəsinin kağız üzərində qalmasına baxmayaraq, üzv-dövlətlər arasındakı qarşılıqlı ticarətdə zəif də olsa müsbət dinamika müşahidə olunur. Məsələn, 2006-cı ildə Azərbaycanın Ukrayna ilə idxal-ixrac əməliyyatlarının həcmi 2006-cı ildə 355 milyon dollara bərabər idisə, 2008-ci ildə bu 739 milyon dollara, 2010-cu ildə isə 1, 3 milyard dollara bərabər olmuşdu (11).

GUAM ölkələri arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. Bu daha çox onların regionda sülhün, təhlükəsizliyin, stabilliyin təmin olunması ilə bağlı ümumi maraqlarından, beynəlxalq təşkilatlarda əlaqələndirilmiş mövqe nümayiş etdirmək zərurətindən irəli gəlir.

Beynəlxalq terrorizmə, mütəşəkkil cinayətkarlığa, nakotik maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə GUAM-ın fəaliyyətində əsas yerlərdən birini tutur. 2002-ci il iyulun 20-də Yaltada "GUÖAM-a üzv-dövlətlərin hökumətləri arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdı (14). Sazişi imzalayan tərəflər terrorizmi beynəlxalq sülh və təh-

lükəsizlik üçün əsas təhlükə hesab edərək ona qarşı bütün vasitələrlə mübarizə aparmağın vacibliyini qeyd etmişlər.

2003-cü ilin iyul ayında GUÖAM-ın terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotiklərin yayılmasına və cinayətlərin digər təhlükəli növləri ilə mübarizə üzrə Virtual Mərkəzinin və Dövlətlərarası İnformasiya-Analitik Sisteminin yaradılması haqqında saziş imzalanmışdı (15).

GUAM ölkələri arasında hərbi-texniki əlaqələrin genişləndirilməsində Ukrayna xüsusi rol oynaya bilər. Kiyev hərbi kadrların hazırlanmasında, milli silahlı qüvvələrin, sərhəd xidmətinin, hərbi dəniz və hava qüvvələrinin inkişaf etdirilməsində, hərbi texnika və silahların təmirində və təkmilləşdirilməsində, hərbi istehsal sahələrinin yaradılmasında tərəfdaş ölkələrə, o cümlədən Azərbaycana əhəmiyyətli yardım göstərə bilər. Öz növbəsində, Azərbaycanda ali hərbi məktəblərin fəaliyyət göstərməsi, hərbi-sənaye kompleksinin yaradılması bu ölkənin də hərbi əməkdaşlıq sahəsindəki imkanlarını kifayət qədər artırmışdır.

GUAM məkanında həyata keçirilən irimiqyaslı layihələr də müəyyən təhlükəsizlik tədbirlərinin görülməsini və üzv-dövlətlər arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsini tələb edirdi. 1999-cu il aprelin 16-da Gürcüstanın Rustavi şəhəri yaxınlığındakı poliqonda Azərbaycan, Gürcüstan və Ukrayna hərbi birləşmələrinin iştirakı ilə keçirilmiş təlimlər bu sahədə atılmış addımlardan biri idi. Bu təlimlər zamanı neft kəmərlərini mühafizə qaydalarının təkmilləşdirilməsinə daha çox fikir verilmişdi (13, 352). Neft-qaz kəmərlərinin, nəqliyyat-kommunikasiya xətlərinin qorunması məsələsi sonrakı illərdə də diqqət mərkəzində saxlanılmışdı.

Sərhədlərin qorunması, sərhəd xidmətlərinin işinin təkmilləşdrilməsi GUAM-ın təhlükəsizlik sahəsindəki fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. 2006-cı il mayın 22-də Kiyev şəhərində GUAM-a üzv-dövlətlərin sərhəd idarələrinin operativ orqanlarının əməkdaşlığı haqqında protokol imzalanmışdı (16). Sazişi imzalamaqda əsas məqsəd dövlət sərhədində, xüsusilə GUAM ölkələrinin beynəlxalq əlaqə kanallarında qanunazidd fəaliyyətin aşkarlanması, xəbərdarlıq edilməsi və qarşısının alınması üçün operativ-axtarış fəaliyyəti sahəsində üzv-dövlətlərin səlahiyyətli orqanları arasında əməkdaşlığın təşkilindən ibarətdir. Bu əməkdaşlıq daha çox terrorizm və onun təzahürlərinə, silah və sursatın, partlayıcı, zəhərləyici, radioaktiv maddələrin, narkotik və psixotrop vasitələrin, onların analoqları və prekursorlarının qaçaqmalçılığına, insan alveri və qeyri-qanuni miqrasiyaya qarşı mübarizəni əhatə edir. Tərəflər qarşıya qoyulan məqsədə çatmaq üçün informasiya və təcrübə mübadiləsinə, vəziyyətin birgə təhlilinə, əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsinə daha geniş yer verirlər.

2005-ci ildən başlayaraq GUAM-a üzv dövlətlər terror, o cümlədən Azərbaycan və Ukrayna narkotiklərin qeyri-leqal dövriyyəsi və insan alveri ilə mübarizə metodlarını təkmilləşdirmək məqsədilə Avropanın digər ölkələri ilə keçirilən birgə əməliyyatlarda (“Harmoniya”, “Ximera”, “Narkostop”, “Perexvat”) iştirak edirlər.

1999-cu il mayın 22-də Bakıda müdafiə nazirlikləri səviyyəsində keçirilmiş Azərbaycan-ABŞ danışıqlarında əsas müzakirə obyektlərindən biri NATO-GUÖAM qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi olmuşdu (12, 102). Hal-hazırda Azərbaycan və Ukrayna NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında, bu proqram çərçivəsində həyata keçirilən birgə təlimlərdə iştirak edirlər.

GUAM məkanında genişmiqyaslı inteqrasiya proseslərinin, demokratik dəyişikliklərin, davamlı inkişafın, regional təhlükəsizliyin təmin olunması yolunda ən böyük maneə həllini tapmayan münaqişələrin mövcud olmasıdır. GUAM ərazisində həlli uzanan münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində tənzimlənməsi üçün təşkilat çərçivəsində ardıcıl olaraq müzakirələr aparılır. Üzv-dövlətlərin 1999-cu il Vaşinqton Bəyannaməsində münaqişələrin və böhranların dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll olunması üçün qarşılıqlı əməkdaşlığı möhkəmlətmək məqsəd kimi qarşıya qoyulmuşdu (3). Təşkilatın 2001-ci ildə qəbul olunmuş Yalta Xartiyasında münaqişələrin sülh yolu ilə aradan qaldırılmasının yollarından biri kimi regional əməkdaşlığın inkişaf etdirilməsi göstərilmişdir (4).

2006-cı il mayın 23-də GUAM-ın Kiyevdə keçirilmiş zirvə toplantısında GUAM dövlət başçılarının münaqişələrin nizamlanması üzrə Birgə Bəyannaməsi qəbul edilmişdi (17). Sənəddə münaqişələrin yalnız dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı prinsipi əsasında tənzimlənməsi GUAM çərçivəsində əməkdaşlığın prioritetlərindən biri kimi göstərilmişdir.

GUAM-ın yarandığı vaxtdan vahid sülhyaradıcı strukturun yaradılması fikri meydana gəlmişdir. 2007-ci il iyunun 18-19-da GUAM-ın Bakıda keçirilmiş zirvə görüşünün yekunlarına həsr olunmuş mətbuat konfransında Ukrayna prezidenti V.Yuşşenko bəyan etmişdi ki, "...ümumiyyətlə, söhbətin Dnestryanı bölgə, yaxud Dağlıq Qarabağ və ya Cənubi Osetiya münaqişəsindən getməsindən asılı olmayaraq münaqişənin həlli formulu beynəlxalq hüquq çərçivəsindədir... Hər şeydən əvvəl, bu, ərazi bütövlüyünün tanınmasıdır. ...söhbətlərin mövzularından biri GUAM ölkələrinin sülhməramlı taburunun formalaşdirilması barədə idi. Heç şübhəsiz, əgər buna müvafiq dəstək olarsa, əgər belə siyasi qərar qəbul edilərsə, əgər bizim diskussiya müsbət nəticələnərsə, bu qüvvələr ya ATƏT-in, yaxud da Birləşmiş Millətlər Təşkilatının mandatı çərçivəsində fəaliyyət göstərəcəkdir" (18). GUAM-ın sülhyaradıcı qüvvələrinin yaradılması haqqında müzakirələrin sonrakı illərdə də aparılmasına baxmayaraq, bu günə qədər bu ideyanı reallaşdırmaq mümkün olmamışdır.

**ƏDƏBİYYAT**


1. Joint Communiqué Meeting of the President of Azerbaijan, Georgia, Moldova and Ukraine // http://mfa.gov.az/downloads/guam/1.doc
2. Дегоев В. Большая игра на Кавказе: история и современность. М.: Русская панорама, 2003, 512 с.

3. Заявление президентов Азербайджанской Республики, Грузии, Республики Молдова, Украины и Республики Узбекистан // http://guam-organization.org/node/305
4. Ялтинская Хартия ГУУАМ // http://guam-organization.org/node/802
5. Соглашение о создании зоны свободной торговли между государствами-участниками ГУУАМ (вступило в силу 10 декабря 2003 года) // http://guam-organization.org/node/809
6. Устав Организации за демократию и экономическое развитие – ГУАМ // http://guam-organization.org/node/449
7. Киевская Декларация о создании Организации за демократию и экономическое развитие – ГУАМ // http://guam-organization.org/en/node/573
8. Долинчук С. Дипломатия признала Одесса — Броды. Политические противоречия не мешают на дипломатическом уровне обсуждать перспективы транспортировки каспийской нефти. Газ. "Экономические известия", 2008, 09 декабря.
9. Водо В., Ребров Д. Казахскую нефть развернут на Польшу. Газ. "Коммерсантъ", 2007, 01 октября.
10. В.Чечелашвили: "Благодаря ЗСТ ГУАМ Украина компенсировала 11% дефицита своего внешнеторгового баланса" // http://guam-organization.org/node/1041
11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Xarici iqtisadi fəaliyyət. Ölkələr üzrə ticarət dövriyyəsi // http://www.azstat.org/statinfo/consumermarket/az/xar_t.shtml
12. Парахонский Б. Формирование модели регионального сотрудничества в системе ГУУАМ. // Центральная Азия и Кавказ. 2000, №2 (8), с. 98-105.
13. Гусейнов В. Каспийская нефть. Экономика и геополитика. М.: Олма-Пресс, 2002, 384 с.
14. Соглашение о сотрудничестве между Правительствами государств-участников ГУУАМ в сфере борьбы с терроризмом, организованной преступностью и иными опасными видами преступлений (вступило в силу 25 августа 2004 года) // http://guam-organization.org/node/808
15. Соглашение о создании Виртуального Центра ГУУАМ по борьбе с терроризмом, организованной преступностью, распространением наркотиков и иными опасными видами преступлений и Межгосударственной Информационно-Аналитической Системы ГУУАМ // http://guam-organization.org/node/810
16. Протокол о сотрудничестве оперативных органов пограничных ведомств государств-участников ГУАМ // http://guam-organization.org/node/814
17. Совместная Декларация глав государств Организации за демократию и экономическое развитие - ГУАМ по вопросу урегулирования конфликтов http://guam-organization.org/en/node/572
18. GUAM-ın Bakıda keçirilən zirvə görüşü onun getdikcə artan beynəlxalq nüfuzunun təsdiqidir. GUAM-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının birgə mətbuat konfransı. "Azərbaycan" qəz., 2007, 20 iyun.

## АЗЕРБАЙДЖАНО-УКРАИНСКИЕ ОТНОШЕНИЯ В РАМКАХ ГУУАМ

**А.Ш.ШАХМУРАДОВ**

**РЕЗЮМЕ**

Слабость интеграционных процессов на пространстве СНГ, нерешенность существующих проблем являются причинами возникновения новых, субрегиональных организаций. Одной из таких организаций стал ГУАМ, членами которого являются Азербайджан, Грузия, Украина и Молдова. Расширение азербайджано-украинских отношений, наряду с развитем двусторонних связей, оказывает положительное влияние на развитие ГУАМ. Отношения между Азербайджаном и Украиной охватывают экономическую, торговую, политическую, военную и другие сферы.

**Ключевые слова:** Азербайджан, Украина, ГУУАМ, интеграция

## AZERBAIJAN-UKRAINE RELATIONS WITHIN THE FRAMEWORK OF GUAM

**A.Sh.SHAKHMURADOV**

**SUMMARY**

The weaknesses of the integration processes in the CIS space, the unsolved problems are the causes of the emergence of new sub-regional organizations. One such organization is GUAM, whose members are Azerbaijan, Georgia, Ukraine and Moldova. The expansion of Azerbaijani-Ukrainian relations, along with the development of bilateral relations, has a positive impact on the development of GUAM. The relations between Azerbaijan and Ukraine cover the economic, commercial, political, military and other fields.

**Key words:** Azerbaijan, Ukraine, GUAM, integration